# 147 ölkə, 4000 iştirakçı, 45 iclas, 86 tədbir...

## Və Azərbaycanda tarixə yazılan möhtəşəm 3 gün



Bir həqiqəti etiraf etməliyik: uzun illərdir beynəlxalq təşkilatların qlobal tədbirlərinin, yaxud fövqəldövlətlərin təşkil etdikləri zirvə görüşlərinin nəticələri çox zaman kağız üzərində qalır, icra olunmur. Deklarativ bəyanatlar, bir gün sonra unudulan qətnamələr, həyata keçirilməyən ideyalar belə məclislərin daha çox görüntü xararkterli olmasını elə əvvəldən məlum edir. Lakin dünyamızın heç vaxt olmadığı qədər problemlər, hərbi savaşlar, siyasi təhdidlər, sosial və iqtisadi böhranlar məngənəsində boğulduğu bir zamanda bu təlatümlərdən çıxış yolu birgə fəaliyyəti və sıx əməkdaşlığı zəruri edir.

### Qlobal problemlərin birgə səylərlə həllinə çalışmaq yeganə çıxış yoludur

Dünyanın dörd bir tərəfində aclıqdan, qaçqınlıqdan, terrordan, dövlətinin tənəzzülündən əziyyət çəkən yüz milyonlarla insan ümidi ətrafdan - “dünya birliyi” dediyimiz öncül dövlətlər qrupundan gözləyir.

Azərbaycan da dünyanın ən böyük və nüfuzlu təşkilatının - BMT-nin qlobal forumuna evsahibliyi etdi. Bəs bu tədbirin nəticəsi necə, əvvəlkilər kimi əhəmiyyətsiz, tez unudulan olacaq, yoxsa real dönüşə təkan verəcək?

Bakı Qlobal Forumu BMT-nin Sivilizasiyalar Alyansının VII zirvə görüşü olsa da, artıq birmənalı etiraf edilir ki, önçəki altı tədbirdən tam fərqlənəcək. Qurumun fəaliyyətində əsaslı dəyişikliyə, daha real və konkret iş yönümünə zəmin yaradacaq, üzv dövlət və təşkilatların öz üzərlərinə düşən öhdəlikləri məsuliyyətlə həyata keçirmələrinə yardım edəcək. Bakı forumu birmənalı sübut etdi ki, sivilizasiyalararası sağlam əməkdaşlıq, səmimi təmas, qlobal problemlərin birgə səylərlə həllinə çalışmaq yeganə çıxış yoludur. Ədalətin və haqqın böyük güclər tərəfindən pozulduğu, tapdandığı bir dövrdə nisbətən kiçik, zəif, az inkişaf etmiş cəmiyyətlərin, xalqların, dövlətlərin hüquqlarının aliliyinin və mövcudluğunun toxunulmazlığı Bakı forumunun əsas çağırışı idi.

Azərbaycan malik olduğu birgəyaşayış modelini, daxili multikultural və tolerant yaşam nümunəsini dünyaya təqdim etdi. Dini-milli fərqlilikləri, tarixi inkişaf müxtəlifliyi olan toplumların qarşılıqlı etimada, inama əsaslanan yaşamının Azərbaycan örnəyi sivilizasiyalararası toqquşmalara son qoyub, münasibətləri tərəfdaşlıq və ünsiyyət müstəvisinə çevirmək istəyənlər üçün ən düzgün istinad mənbəyidir.

### Dünya Azərbaycan modelinə istinad edir

Bu gerçəklik forumun ən ali qonaqlarından adi iştirakçılarına qədər hər kəsin ortaq qənaəti kimi dəfələrlə səsləndi, rəsmən bəyan edildi. Konkret fikirlərə diqqət yetirək.

**Nasir Əbdüləziz əl-NASİR:**
“Prezident Əliyevin liderliyi xüsusi qeyd edilməlidir. 2016-cı ilin “Multikulturalizm ili” elan edilməsi ilə əlaqədar onun irəli sürdüyü təşəbbüs dünya xalqları arasında münasibətlərin gücləndirilməsinə yönəlmiş mühüm addım kimi geniş şəkildə təşviq edilir... Mədəniyyətlərarası dialoqa töhfə verən “Bakı Prosesi” tolerantlıq, dözümlülük, qarşılıqlı anlaşma və dialoqun təşviqinə əsaslanır. Bu ideyalar BMT-nin Sivilizasiyalar Alyansının da əsas məqsədləridir. İnklüziv cəmiyyət kimi də Azərbaycan modelini örnək götürmək olar... Bu səfərlər, forumlar, eləcə də hazırkı tədbir Azərbaycan dövlətinin mədəniyyətlərarası dialoqa, tolerantlığa, multikultural dəyərlərə necə həssas yanaşdığını, təşviq etdiyini göstərir. Bütün bunlar mühüm amillərdir. Azərbaycanın bu istiqamətdə gördüyü işlər BMT və onun qurumları tərəfindən yüksək qiymətləndirilir”.

**Xose Manuel Qarsia MARQALLO:**
“Azərbaycan və onun paytaxtı Lissabon və Madriddən tutmuş Pekinə qədər böyük məkanın mərkəzində yerləşir, bir çox yeni marşrutların başlanğıcıdır. Buradan insanlar keçir, ideyalar mübadilə olunur və ticari əlaqələr qurulur. Bu gün biz Bakıda ona görə toplaşmışıq ki, yeni qlobal İpək yolundayıq”.

**Mövlud ÇAVUŞOĞLU:**
“Tolerantlığa və qarşılıqlı anlaşmaya Azərbaycandan yaxşı nümunə tapmaq mümkün deyil”.

**Vidas KAVALİAUSKAS:**
“Xalqlar, dinlər arasında ədavətin aradan qaldırılması, birgə, mehriban yaşama prinsipinin təbliği və aşılanması baxımından Azərbaycan multikulturalizmi dünya ictimaiyyətinə örnək ola biləcək səviyyədədir”.

**Sergey MARKOV:**
“Azərbaycan müasir dünyəvi cəmiyyətdə xristianların və müsəlmanların qarşılıqlı fəaliyyətinin gözəl nümunəsidir”.

**Natalia RAŞOVSKAYA:**
“Azərbaycanın multikulturalizm təcrübəsi örnəkdir. BMT-nin qarşıya qoyduğu əsas məqsədlərə çatmaqda Azərbaycanın multikulturalizm modeli digər dövlətlər tərəfindən də tətbiq oluna bilər”.

**Mayk HARDİ:**
“Bakı Prosesi” beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqun qurulmasında uğurlu platformadır. 2008-ci ildən başlayan “Bakı Prosesi” münaqişələrin, böhranların qarşısının alınması, insan haqlarının təmin edilməsinə öz töhfələrini verib. Bu proses institut və təşkilatları bir araya gətirən önəmli və nadir platformadır”.

**Pan QUANQ:**
“Şərq ilə Qərbin qovuşuğunda yerləşən Azərbaycan bütün dinlərin və mədəniyyətlərin təmsilçilərinin sülh, qarşılıqlı hörmət şəraitində yaşadığı ölkədir. Qədim tarixə malik bu nadir ölkə daim mədəniyyətlərarası dialoqa öz töhfəsini verib”.

**Taras DZUBANSKİ:**
“Azərbaycanın təqdim etdiyi multikulturalizm modeli, fərqli dinlərin və millətlərin nümayəndələrinə yüksək ali dəyərlərə söykənən münasibəti bu gün dünyada sabitliyi təhdid edən ünsürlərin artdığı bir vaxtda çox əhəmiyyətli olması ilə bərabər, dünya ölkələrinə gözəl bir örnəkdir”.

**Məhəmməd əl-DƏHŞAN:**
“Azərbaycan mədəniyyətlər və dinlərarası dialoqa dünya miqyasında töhfələr verir. Bu, eyni zamanda, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına səbəb olur”.

**Vyonne AKOT:**
“Azərbaycan hökumətinin gənclərə və idmana qayğısı dünya üçün gözəl nümunədir. Bakı Forumu dünya ölkələri nümayəndələrinin bir araya gəlməsi və gündəmdə olan qlobal məsələləri müzakirə etməsi baxımından çox mühüm platformadır”.

**Rebaz MƏHƏMMƏD:**
“Azərbaycan müxtəlif mədəniyyətləri və dinləri bir araya gətirir, burada bütün millətlər sülh şəraitində problemsiz yaşayırlar”.

**Piter TEYZ:**
“Ermənistan bölgədəki ölkələr üçün xaos və zorakılıq təhlükəsi yaradır. Dünya ictimaiyyəti Azərbaycanın haqlı mövqeyini daha qətiyyətlə müdafiə etməlidir. Bu cür beynəlxalq tədbirlər Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini, həmçinin Azərbaycan xalqının son iyirmi ildə yaşadığı problemləri bir daha dünya ictimaiyyətinə çatdırmalıdır”.

**Holger HEYMS:**
“İnsanların dinindən, milliyyətindən asılı olmayaraq birlikdə yaşadığı, bərabər hüquqlara malik olduğu ölkələrin arasında Azərbaycanın özünəməxsus yeri var”...

### Bakı ümidləri yenə də doğrultdu

Bu kimi sitatların sayını istənilən qədər artırmaq olar. Forumda dünyanın 147 ölkəsini təmsil edən 4000-dən artıq nümayəndə yalnız öz düşüncələrini deyil, həm də ölkələrinin, cəmiyyətlərinin Azərbaycan nümunəsi ilə bağlı mövqelərini dilə gətirirdilər. Dövlət, hökumət və parlament başçıları, nazirlər, rəsmi şəxslər, beynəlxalq təşkilatların rəhbər heyətləri, dini liderlər, müxtəlif sahələr üzrə ekspertlər, qeyri-hökumət və vətəndaş cəmiyyəti, biznes dairələri və KİV nümayəndələri 45 iclasda, 86 mədəni tədbirdə əsas mövzularla yanaşı daim Azərbaycan modelini də müzakirə və təqdir etdilər. Forumu işıqlandıran yüzlərlə xarici media tədbirin gedişi ilə bərabər həm də təşkilatçı dövlətin bu sahədə malik olduğu nümunəvi ənənələrdən, dünyanın ən mükəmməl multikultural və tolerant yaşam tərzinə məxsusluğundan geniş reportajlar verdi.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu barədə hələ çox danışılacaq, araşdırmalar aparılacaq. Çünki bu tədbir sivilizasiyalararası əməkdaşlıqda yeni fəaliyyət mərhələsinə keçidin əsasını qoydu, həmçinin üzv dövlət və təşkilatları real məqsədlər uğrunda səfərbər etdi. Eyni zamanda “Bakı Prosesi” artıq miqyasını və hədəfini çox genişləndirir. Mədəniyyətlərarası dialoq təşəbbüsü indi sivilizasiyalararası mədəni-humanitar-siyasi-iqtisadi əməkdaşlıq platformasına çevrilir.

*Mehriban xanım Əliyevanın forumda səsləndirdiyi “Uğurlarımıza və nailiyyətlərimizə baxdıqda gələcəyimizə çox nikbinliklə yanaşırıq” fikri isə ümumilikdə sivilizasiyalararası əməkdaşlıqda “Bakı Prosesi”-nin oynayacağı mühüm rola hər kəsin böyük inamını və etimadını ifadə edir.*

*Dünya Bakıya ümidlə baxırdı. Bakı isə ümidləri bu dəfə də doğrultdu...*

**İxtiyar HÜSEYNLİ,**
***“Azərbaycan”***